# Təcrübə mübadiləsi

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Mədinə Qasımova qabaqcıl ingilis dili müəllimi kimi 60 gün ABŞ-ın Şimali Karolina ştatındakı Apaliçi Dövlət Universitetində təcrübə mübadiləsi proqramında iştirak edib. Mahiyyətcə təhsil proqramı olan bu tədbirdə 42 ölkədən 130 müəllim iştirak edib. Azərbaycandan həmin təhsil proqramına Mədinə Qasımova dəvət olunub. Proqram çərçivəsində təhsillə bağlı qlobal məsələlər müzakirə olunub. İKT-nin tədris prosesinə tətbiqi, fəal dərs və müasir təlim metodları təhlil edilib, dərslərin planlaşdırılması və sair bu kimi metodoloji, pedaqoji məsələlər barədə fikir mübadiləsi aparılıb.



Proqramın əhatə dairəsi yuxarıda qeyd etdiyimiz kimi əsasən təhsil məsələləri olsa da universitet rəhbərliyi multikultural dəyərlər, fərqliliklərin insanlar arasında yaratdığı çətinliklər, problemlərin həllində dialoq, əməkdaşlıq və tolerantlığın rolu kimi məsələlərin müzakirəsinə də yer ayırmışlar. Belə ki, Apaliçi Dövlət Universiteti və Vataqa Ali Məktəbi müxtəlif ölkələrdən gəlmiş müəllimlərin iştirakilə «Dünyada soyqırım» adlı konfrans keçirmişdir. Həmin konfransda Mədinə müəllimənin çıxışı nəzərdə tutulmasa da o təkidlə çıxışa yazılmış və ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımları, xüsusən Xocalı soyqırımı haqqında 43 ölkədən gəlmiş müəllimlər qarşısında tutarlı faktlarla çıxış etmişdir.

Mədinə müəllimə hələ ABŞ-da olarkən Azərbaycan Respublikası Təhsil Nazirliyi və ölkəmizin ABŞ-dakı səfirliyi ilə əlaqə saxlamış, Xocalı soyqırımına aid xeyli material toplayaraq təcrübə keçdiyi universitetin rəhbərliyinə təqdim etmişdir.

**«Qəbələ»**

# Bilik yarışı

Qəbələ şəhəri 2 nömrəli tam orta məktəbində 21 fevral Beynəlxalq Ana Dili Gününə həsr olunmuş bilik yarışı keçirilib.



Azərbaycan dili və ədəbiyyatı fənni üzrə keçirilən yarışda məktəbin VIª sinif şagirdləri iştirak ediblər.

Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Təhminə Mirzəliyeva bildirib ki, məqsədimiz şagirdləri Azərbaycan dilinə- ana dilimizə məhəbbət ruhunda yetişdirmək, bədii ədəbiyyatımıza maraq oyatmaqdan ibarətdir.

Təhminə Mirzəliyeva yarışın şərtlərini izah etmişdir. Yarış hər mərhələdə 3 sual olmaqla 8 mərhələdə keçirilmişdir. Bilik yarışına 22 şagird qoşulmuşdur. Münsiflər heyəti suallara düzgün və daha dolğun cavab verən VIª sinif şagirdləri Toğrul Orucovu birinci yerə, Qadir Səmədlini ikinci yerə layiq görmüşdür. Şagirdlərdən Elvin Ağayev və Orxan Mirzəzadə yarışda fəal iştirak edərək üçüncü yeri bölüşmüşlər.

Məktəbin direktoru Təranə Səlimova yarışda fəal iştirak etdiklərinə görə şagirdlərə təşəkkür etmiş, qalibləri diplomlarla mükafatlandırmışdır.

**«Qəbələ»**

# Diaqnostik qiymətləndirilmə davam etdiriləcək

***2018-ci ilin birinci yarısında ölkədə fəaliyyət göstərən ilk-peşə ixtisas təhsili üzrə müəllim-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsinin davam etdirilməsi nəzərdə tutulur.***

Ötən ilin əvvəllərində ilk peşə-ixtisas təhsili müəssisələri üzrə bütün ümumtəhsil fənn müəllimlərinin diaqnostik qiymətləndirilməsi təşkil edilib və həmin müəllimlər inkişafyönümlü təlimlərə cəlb olunub.

2017-ci ilin sonunda isə rasionallaşdırılmış peşə təhsili müəssisələri üzrə Qəbələ rayonunda yaradılmış peşə təhsil mərkəzinin mühəndis-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi keçirilib.

Peşə-ixtisas istiqaməti üzrə tədris etdikləri ixtisaslara müvafiq ali və ya orta ixtisas təhsilli fənn müəllimləri və istehsalat təlimi ustalarının diaqnostik qiymətləndirilmədə iştirakına şərait yaradılıb. Diaqnostik qiymətləndirmənin bu mərhələsində daha çox "Aşpaz", "Kompüter ustası", "Avtomobil təmiri çilingəri", "Dərzi", "Geyim üzrə dizayner", "Əl elektrik qaynaqçısı" ixtisasları üzrə mühəndis-pedaqoji heyət iştirak edib, ixtisas və metodika sahəsində sualları cavablandırıb.

Nəticələrdən asılı olaraq mühəndis-pedaqoji heyətin bilik və bacarıqlarının ixtisasartırma və yenidənhazırlanma təlimləri vasitəsi ilə əmək bazarının tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur.

**"Qəbələ"**

# Praktik təlimlər keçirilir

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Azərbaycanda Kənd Təsərrüfatı Texnologiyaları və İdarəetmə Təşəbbüsü" layihəsi çərçivəsində təlimlərin keçirilməsinə başlanılmışdır.***

***İlk təlim «Gilan» Qəbələ Aqrotexservisdə keçirilmişdir.***



12-13 fevral tarixlərində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində «Claas», «Lemken» şirkətlərinin və Almaniya hökumətinin maliyyə dəstəyi ilə "Azərbaycanda Kənd Təsərrüfatı Texnologiyaları və İdarəetmə Təşəbbüsü" layihəsi çərçivəsində Respublikanın bir neçə rayonunun təsərrüfat və şirkətlərin traktor, kombayn sürücüləri, eyni zamanda müxtəlif müəssisələrdən dəvət edilmiş mexaniklər üçün seminar təşkil olunmuşdur. İkigünlük seminarda məktəbimizin 3 nəfər müəllimi və "aqroservis mütəxəssisi" ixtisası qrupundan 2 nəfər şagird iştirak etmişdir. Praktik təlimlərdə isə "aqroservis mütəxəssisi" ixtisası qrupunun bütün şagirdləri iştirak etmişdir. "Axion" modelli traktor və "Dominator" modelli kombaynın nizamlanması və istismarı mövzusu ilə bağlı seminarı Almaniyadan gəlmiş kənd təsərrüfatı üzrə mütəxəssis Bernd Henn keçirmişdir. İştirakçılara nəzəri dərslər keçirilməklə bərabər praktiki biliklər də verilmişdir. Bunun üçün məktəbə ətraf rayonlardan müxtəlif növdə müasir kənd təsərrüfatı texnikaları gətirilmişdir. Onların arasında "Claas" kombayn və traktorları, "Lemken" taxılsəpən və kotanları, həmçinin "Amazone" gübrəsəpəni və digər aqreqatlar da vardır. Ümumilikdə, seminarda 60-dan çox dünləyici iştirak etmişdir.

Növbəti mərhələdə yaz-tarla işləri və digər aqrotexniki xidmətlərlə bağlı seminarlar keçiriləcəkdir.

**Azad MƏMMƏDOV,**
**Qəbələ Peşə Məktəbinin direktoru.**

# Peşə təhsilinə maraq artır

***Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə "Göyçay İnkişaf Mərkəzi" Gənclər İctimai Birliyi "Öz peşəndə peşəkar ol!" layihəsinin icrasını uğurla başa çatdırıb.***

***Layihə çərçivəsində sonuncu təlim Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində təşkil edilib.***

Region gəncləri üçün keçirilən təlimdə ictimai birliyin sədri Əzizağa Atakişiyev layihənin keçirilməsinin məqsədi və indiyədək görülən işlər barədə ətraflı məlumat verib.

Sonra Qəbələ "ASAN xidmət" mərkəzinin nümayəndəsi Fidan Bayramova çıxış edərək, peşə təhsili sahəsində ölkədə aparılan islahatlardan və "ASAN peşə" layihəsi çərçivəsində təmsil etdiyi qurumun Təhsil Nazirliyi ilə bu istiqamətdə uğurlu əməkdaşlığından danışıb.

Çıxışlardan sonra təlimçi Coşqun İsmayılov iştirakçılara peşə seçiminin strategiyası, uğurlu peşə formulu, peşəyönümü, karyera və peşə fəaliyyətində zamanın düzgün idarəedilməsi mövzularında təlim keçib.

Qeyd edək ki, layihənin əsas məqsədi gənclərin peşə təhsilinə yiyələnməsinə, peşə ixtisası əldə etməsinə maraqlarını artırmaq, onların şəxsi, sosial səriştələrini və peşə bacarıqlarını inkişaf etdirmək, əmək bazarına çıxış imkanlarını dəstəkləmək, həmçinin məşğulluq probleminin həllinə yardım göstərməkdən ibarətdir.

**"Qəbələ"**

# Təhsildə fərqlənən şagirdlər cəlb edilib

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Junior Achievement Azerbaijan" İctimai Birliyinin dəstəyi ilə gənclərin məşğulluq imkanlarının artırılması, bilik, bacarıq və səriştələrinin, eləcə də maliyyə və sahibkarlıq üzrə biliklərinin təkmilləşdirilməsi məqsədi ilə təlimlər keçirilib.



"Karyera üçün təhsil" layihəsinin təlimlərinə 40 nəfər təhsildə fərqlənən şagird cəlb edilib.

**"Qəbələ"**